# PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ VƏ İNFRASTRUKTUR İNKİŞAFI: NƏTİCƏYÖNLÜ, İNKLÜZİV VƏ İNNOVATİV İDARƏETMƏ MODELİ



**Vüqar Məmmədov,**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında*
*Peşə Təhsili üzrə Dövlət Agentliyinin Maliyyə və təsərrüfat şöbəsinin müdiri,*
*UNEC-in Biznesin idarə edilməsi kafedrasının müəllimi*
*e-mail: Vugar.Mammadov@ptda.edu.az*
*https://doi.org/10.30546/2706-7858.2025.3.3007*

**UOT:** 33. 366. 377

**Xülasə**. *Məqalədə respublikamızda peşə təhsili müəssisələrinin maliyyə və infrastruktur sistemində aparılan yeniliklər və islahatlar elmi əsaslarla təhlil olunur. Həmçinin 2023-cü ildən etibarən tətbiq edilən adambaşına maliyyələşmə, nəticəyönlü və genderəsaslı büdcə, büdcə risklərinin idarə olunması, emalatxanaların müasir avadanlıqlarla təchizatı, yaşıl enerjiyönümlü infrastruktur, eləcə də süni intellektin gələcəkdə idarəetməyə inteqrasiyası kimi proseslər geniş şəkildə araşdırılır. Məqalə həm pilot müəssisələrin təcrübəsinə, həm də ümumrespublika üzrə həyata keçirilən islahatların nəticələrinə əsaslanır.*

***Açar sözlər:*** *peşə təhsili, maliyyə idarəetməsi, adambaşına maliyyələşmə, emalatxanalar, nəticəyönlü büdcə, yaşıl enerji, genderəsaslı büdcə, süni intellekt, risklərin idarə edilməsi.*
***Key words:*** *vocational training, financial management, per capita financing, workshops, results-based budgeting, green energy, gender-based budgeting, artificial intelligence, risk management.*
***Ключевые слова:*** *профессиональная подготовка, финансовый менеджмент, подушевое финансирование, семинары, бюджетирование, ориентированное на результаты, зеленая энергетика, гендерное бюджетирование, искусственный интеллект, управление рисками.*

Son illər respublikamızda peşə təhsili insan kapitalının inkişafında əsas strateji sahələrdən birinə çevrilmişdir. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” və “Yaşıl Dünya Konsepsiyası” çərçivəsində bu sahədə maliyyə dayanıqlığı, infrastrukturun yenilənməsi, bərabər imkanların yaradılması və rəqəmsal transformasiya istiqamətlərində ardıcıl tədbirlər görülmüşdür. Bu islahatlar nəticəsində:

*– maliyyə idarəetməsində adambaşına maliyyələşmə və nəticəyönlü büdcə mexanizmləri;*
*– infrastruktur sahəsində müasir emalatxanalar və laboratoriyalar;*
*– sosial sahədə genderəsaslı büdcələşmə və inklüzivlik;*
*– texnoloji sferada isə süni intellekt və rəqəmsal idarəetmə alətlərinin gələcək tətbiqi istiqamətində fundamental addımlar atılmışdır.*

**1. Adambaşına maliyyələşmə və nəticəyönlü büdcə modeli**

Adambaşına maliyyələşmə modeli peşə təhsili müəssisələrinin maliyyələşməsini tələbə sayı, ixtisas istiqamətləri və nəticə göstəriciləri əsasında müəyyən edir. Bu modelin əsas üstünlükləri aşağıdakılardır:

*– maliyyə müstəqilliyinin artırılması;*
*– institusional hesabatlılığın gücləndirilməsi;*
*– keyfiyyətə əsaslanan rəqabət mühiti.*

Modelin ilk mərhələsi 2023-cü ildən etibarən 9 müəssisədə həyata keçirilmiş və 8400 tələbəni əhatə etmişdir. 2026-cı ilədək bu sayın 11 müəssisəyə çatdırılması və tələbə sayının 10 minədək artırılması nəzərdə tutulur.

**1.1. Yeni maliyyə imkanları və satınalma çevikliyi**

Adambaşına maliyyələşmə tətbiqindən sonra peşə təhsili müəssisələri daxili gəlirlərindən daha səmərəli istifadə etməyə başlayıblar. Artıq hər bir müəssisə:

*– öz büdcə vəsaitlərindən emalatxanaların modernləşdirilməsinə;*
*– müasir tədris və istehsal avadanlıqlarının alınmasına;*
*– praktiki təlim üçün texnoloji laboratoriyaların qurulmasına sərmayə qoya bilir.*
*– nəticə və qiymətləndirmə əsasında əməkhaqqı islahatları aparırlar. Bu mexanizm mərkəzləşdirilmiş satınalma mexanizmindən fərqli olaraq real ehtiyaclara əsaslanan nəticəyönlü maliyyələşmə mədəniyyəti formalaşdırır. Müəssisələr bazar araşdırması apararaq ən optimal təchizatçılardan avadanlıq əldə edir, nəticədə isə resursların israfı azalır, məsuliyyət və şəffaflıq artır.*

**2. Büdcə risklərinin idarə olunması və maliyyə dayanıqlığı**

Peşə təhsili müəssisələrinin maliyyə müstəqilliyinin artması, eyni zamanda onların maliyyə sabitliyinin qorunması və büdcə risklərinin effektiv idarə olunması kimi yeni çağırışlarla üz-üzə qalmasına səbəb olmuşdur. Maliyyə resurslarının idarə edilməsində risklərin nəzərə alınmaması maliyyə sabitliyinə, tədris keyfiyyətinə və investisiya proqramlarının icrasına mənfi təsir göstərə bilər. Bu səbəbdən risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, monitorinqi və mitiqasiyası (azaldılması) peşə təhsili müəssisələrinin maliyyə idarəetməsində əsas komponentlərdən birinə çevrilmişdir.

**2.1. Büdcə risklərinin mahiyyəti və təsnifatı**

Peşə təhsili müəssisələrinin fəaliyyət mühiti dinamik və çoxmənbəlidir, ona görə də büdcə riskləri müxtəlif təsir amillərinə malikdir. Elmi ədəbiyyatda bu risklər əsasən, daxili və xarici amillərə görə təsnif olunur:

**Daxili risklər:**

*– tələbə sayının dəyişməsi;*
*– planlaşdırma və proqnozlaşdırma səhvləri;*
*– tədris və əməliyyat xərclərinin düzgün hesablanmaması;*
*– daxili nəzarət mexanizmlərinin zəifliyi.*

**Xarici risklər:**

*– inflyasiya və makroiqtisadi qeyri-sabitlik;*
*– dövlət büdcəsində dəyişikliklər;*
*– enerji daşıyıcılarının qiymət artımı;*
*– təbii və sosial risklər (pandemiya, region sabitliyi və s.).*

Bu amillər müəssisələrin büdcə proqnozlarını dəyişdirir, maliyyə qərarlarının operativliyini azaldır və davamlılıq indeksinə mənfi təsir göstərə bilər.

**2.2. Risklərin idarə olunmasının elmi-metodoloji çərçivəsi**

Peşə təhsili sistemində risklərin idarə edilməsi artıq klassik reaktiv yanaşmadan daha çox proaktiv və modelləşdirilmiş idarəetmə strategiyasına keçir. Bu strategiya aşağıdakı mərhələləri əhatə edir:

*– risk identifikasiyası: mümkün risklərin erkən mərhələdə müəyyən olunması (tədris, maliyyə, enerji, satınalma, insan resursları və s. üzrə);*

*– risklərin qiymətləndirilməsi: ehtimal və təsir dərəcəsinə görə matrisəsaslı təsnifat (aşağı, orta, yüksək təsir səviyyəsi);*

*– mitiqasiya strategiyasının hazırlanması: riskin azaldılması və ya ötürülməsi mexanizmlərinin müəyyən edilməsi (sığorta, ehtiyat fondları, müxtəlifləşdirilmiş gəlir mənbələri);*

*– monitorinq və hesabatlılıq: risklərin dinamik izlənilməsi üçün daxili audit və analitik daşınmaz əmlakın tətbiqi.*

**2.3. Büdcə risklərinin əsas istiqamətləri və təsir mexanizmləri**

| Risk kateqoriyası | Təsir sahəsi | Mümkün nəticə | İdarəetmə tədbiri |
|---|---|---|---|
| Likvidlik riski | Xərclərin vaxtında maliyyələşməsi | Kassa kəsiri, tədrisin dayanması | Büdcə ehtiyat fondu, maliyyə rezervləri |
| Satınalma riski | Avadanlıq və xidmətlərdə qiymət dalğalanması | Gecikmə, əlavə xərc yükü | Elektron satınalma, müqavilə sığortası |
| Tədris keyfiyyəti riski | Nəticəyönlü göstəricilərin azalması | Maliyyə resurslarının azalması | Performans əsaslı büdcə planı |
| Makroiqtisadi risklər | Dövlət siyasəti və inflyasiya | Gəlirlərin real dəyəri nin azalması | Dinamik indeksasiya və çoxmənbəli maliyyə |

Bu təsnifat müəssisələrdə maliyyə risk xəritələrinin hazırlanmasına, prioritetlərin müəyyən edilməsinə və resursların düzgün yönləndirilməsinə imkan verir.

**2.4. Maliyyə dayanıqlığının təmin olunması mexanizmləri**

Peşə təhsili müəssisələrinin maliyyə dayanıqlığı üçsəviyyəli idarəetmə modelinə əsaslanmalıdır:

**1. Strateji səviyyə:**

*– uzunmüddətli büdcə planlaması;*

*– investisiya və texniki yeniləmə proqramlarının inteqrasiyası.*

**2. Operativ səviyyə:**

*– tədris və əməliyyat xərclərinin çevik idarə edilməsi;*

*– xərclərin səmərəliliyinə dair Key Performance Indicator (KPI) sistemlərinin tətbiqi;*

*– enerji və resurs istifadəsinin optimallaşdırılması.*

**3. Analitik səviyyə:**

*– maliyyə göstəricilərinin rəqəmsal monitorinqi;*

*– AI əsaslı büdcə proqnoz modellərinin gələcəkdə tətbiqi;*

*– performans analitikası əsasında qərarvermə.*

Beləliklə, maliyyə dayanıqlığı təkcə vəsaitlərin miqdarı ilə deyil, həm də onların idarəolunma keyfiyyəti, çevik proqnozlaşdırma qabiliyyəti və risklərin sistemli şəkildə azaldılması ilə ölçülür.

**2.5. Elmi nəticə və tövsiyələr**

Büdcə risklərinin elmi əsaslarla idarə olunması peşə təhsili müəssisələrinin maliyyə sabitliyinin qorunmasında həlledici rol oynayır.

Tövsiyə olunur ki:

*– müəssisələrdə risk idarəetmə planları və illik büdcə dayanıqlıq hesabatları hazırlanmalı;*

*– enerji xərcləri və təchizat zənciri riskləri üçün ssenariəsaslı modellər tərtib olunmalı;*

*– büdcə elastikliyi indeksi (Fiscal Elasticity Index) və maliyyə dayanıqlıq koeffisiyenti (FSC) kimi göstəricilər tətbiq edilməli;*

*– süni intellektəsaslı maliyyə proqnozlaşdırma alətləri gələcək mərhələdə pilot şəkildə tətbiq olunmalıdır.*

Belə yanaşma peşə təhsili sistemini riskə davamlı, maliyyə cəhətdən sabit və proqnozlaşdırıla bilən idarəetmə modelinə çevirəcək.

**3. Genderəsaslı büdcə və inklüzivlik**

Peşə təhsilində gender balansı və inklüzivlik sosial-iqtisadi bərabərliyin təminində mühüm rol

oynayır. Genderəsaslı büdcə mexanizmi resursların qadın və kişi təhsilalanlarının bərabər imkanlarını nəzərə alaraq planlaşdırılmasına yönəlir. Bu çərçivədə:

*– qadınların mühəndislik, enerji və texnologiya ixtisaslarına cəlbi artırılır;*

*– qızlar üçün təcrübə və laboratoriya proqramlarında iştirak faizi yüksəldilir;*

*– qadın təlimçilər üçün idarəetmə və ixtisasartırma proqramları genişləndirilir.*

Bu, peşə təhsilində yalnız iqtisadi səmərəliliyi deyil, sosial ədalət və inklüziv inkişaf prinsiplərini də gücləndirir.

**4. Peşə təhsili müəssisələrinin infrastrukturunun modernləşdirilməsi**

Respublikamızda peşə təhsili müəssisələrinin infrastruktur yenilənməsi 2019-cu ildən etibarən sistemli və mərhələli şəkildə həyata keçirilir. Bu prosesin məqsədi yalnız fiziki tikinti və bərpa işlərini deyil, həm də peşə təhsilinin modern iqtisadiyyatın tələblərinə cavab verən maddi-texniki bazasının formalaşdırılmasını təmin etməkdir. İslahatlar nəticəsində ölkə üzrə 60-dan artıq peşə təhsili müəssisəsi yenilənmiş və yeni emalatxanalar, laboratoriyalar, yaşıl enerji texnologiyaları ilə təchiz edilmişdir.

**4.1. Əsas tikinti və yenidənqurma mərhələləri**

2019–2025-ci illəri əhatə edən dövrdə aparılan tikinti və yenidənqurma işləri regionlar üzrə balanslı inkişaf prinsipi əsasında planlaşdırılmışdır. İnfrastruktur islahatları nəticəsində həm yeni binalar istifadəyə verilmiş, həm də mövcud obyektlər müasir tələblərə uyğun bərpa olunmuşdur.

**Müəssisə – işin statusu (2025)**

*• Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yenidənqurma işləri yekunlaşmış, 2023-cü ildən istifadəyə verilib.*

*• Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində yenidənqurma işləri davam edir.*

*• Lənkəran Dövlət Peşə Təhsil Mərkəzində yenidənqurma işləri artıq yekunlaşıb.*

*• Quba Peşə Liseyində yenidənqurma işləri davam edir.*

*• Tovuz, Qax, Salyan, Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzləri isə layihələndirilmə mərhələsindədir.*

Bu layihələrin icrası nəticəsində regionlarda tələbə yerləşdirmə gücü, təhlükəsizlik standartları, enerji səmərəliliyi və tədris keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.

**4.2. Qarabağ və Şərqi Zəngəzur regionunda tikinti və layihələndirilmə**

İşğaldan azad edilmiş ərazilərdə peşə təhsili infrastrukturunun yenidən qurulması həm Böyük Qayıdış Dövlət Proqramının, həm də Elm və Təhsil Nazirliyinin regionallaşma siyasətinin əsas istiqamətidir. Hazırda aşağıdakı müəssisələr üzrə layihələndirmə və yenidənqurma işləri aparılır:

**Müəssisə – status**

*• Bərdə Dövlət Peşə Təhsil Mərkəzində yenidənqurma işləri aparılmış, 2021-ci ildən istifadəyə verilib.*

*• Şuşa Dövlət Peşə Təhsil Mərkəzində əsaslı təmir davam edir.*

*• Füzuli Dövlət Peşə Təhsil Mərkəzində yenidənqurma işləri davam edir.*

*• Ağdam, Zəngilan və Qubadlı Dövlət Peşə Təhsil Mərkəzləri isə layihələndirilmə mərhələsindədir.*

Sadalanan bu layihələr bərpa olunan enerji, tikinti texnologiyaları, turizm və kənd təsərrüfatı üzrə müasir kadr hazırlığına yönəldilib. Xüsusilə Şuşa, Füzuli və Ağdam Dövlət Peşə Təhsil Mərkəzlərində "yaşıl enerji kampusları" konsepsiyası tətbiq olunur – günəş panelləri, təbii işıqlandırma və enerji qənaətli sistemlər layihələrin tərkib hissəsidir.

**4.3. Emalatxanalar və avadanlıq modernləşməsi**

Peşə təhsilinin rəqabətqabiliyyətli olmasının əsas şərtlərindən biri praktiki təlim mühitinin istehsal texnologiyalarına yaxınlaşdırılmasıdır. Bu məqsədlə 2023–2025-ci illərdə emalatxana və laboratoriya yenilənməsi proqramı – aşpazlıq, bərbər-vizajist, bitkiçilik mütəxəssisi, dərzi, bərbər-vizajist-manikürçü, bərbər, qaynaqçı, PVC, xalçaçılıq, elektrik montyoru, qaynaqçı çilingər, elektrik qaz qaynaqçısı, mebel və zərgərlik emalatxanaları üzrə həyata keçirilmişdir. 2024-cü ildə 6 müəs-

sisədə 11 yeni emalatxana, 2025-ci ildə isə 15 müəssisədə 21 emalatxana müasir avadanlıqlarla təchiz edilmişdir.

**4.4. Yaşıl enerji və dayanıqlı infrastruktur modeli**

Son illərdə peşə təhsili müəssisələrinin modernləşdirilməsi "Yaşıl dünya naminə həmrəylik ili" Konsepsiyasına uyğun həyata keçirilir.

Yeni infrastruktur layihələrində – günəş panelləri və alternativ enerji mənbələri, enerji səmərəli istilik və havalandırma sistemləri, su qənaətli avadanlıqlar, yaşıl damlar və ekoloji izolyasiya materialları geniş tətbiq olunur.

Bu model yalnız xərclərin azaldılmasına deyil, həm də ekoloji məsuliyyətli təhsil mədəniyyətinin formalaşmasına xidmət edir. Bəzi emalatxanalar artıq "yaşıl laboratoriyalar" statusu almış və burada bərpa olunan enerji, elektrik mühəndisliyi və iqlim texnologiyaları üzrə praktiki dərslər keçirilir.

**4.5. Cari və əsaslı təmir proqramları: dövri infrastruktur idarəetməsi modeli**

Peşə təhsili müəssisələrinin infrastruktur modernləşməsi yalnız yeni tikililərlə deyil, həm də mövcud tədris binalarının, emalatxana korpuslarının və yardımçı sahələrin dövriəsaslı və cari təmiri ilə təmin olunur. Bu mexanizm uzunmüddətli infrastruktur dayanıqlığının qorunması, tədris prosesinin fasiləsizliyi və təhlükəsizlik standartlarının saxlanılması baxımından strateji əhəmiyyət daşıyır.

2024-cü ildə 20-yə yaxın, 2025-ci ildə isə 8 peşə təhsili müəssisəsində əsaslı və cari təmir işləri icra edilmişdir. Bu işlər Bakı və regionlardakı köhnə infrastruktur bazasına malik müəssisələrdə aparılmışdır.

**Əsaslı təmir layihələri aşağıdakı komponentləri əhatə edir:**

*– tədris binalarının konstruktiv hissələrinin yenilənməsi (dam örtüyü, enerji sistemləri, havalandırma);*

*– emalatxana korpuslarının tam bərpası və texniki kommunikasiyaların yenilənməsi;*

*– istilik və su təchizatı sistemlərinin enerji qənaətli sistemlərlə əvəzlənməsi;*

*– yanğın təhlükəsizliyi və işıqlandırma infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması.*

**Cari təmir proqramları isə daha çox:**

*– interyerin, sinif və tədris otaqlarının;*

*– mühəndis-kommunikasiya xətlərinin;*

*– tədris mebellərinin və işıqlandırma sistemlərinin dövri yenilənməsini nəzərdə tutur.*

Beləliklə, peşə təhsili müəssisələrində fiziki aşınmanın qarşısı alınır, tədris prosesinin fasiləsizliyi təmin edilir və resursların amortizasiya balansı idarə olunur. Cari və əsaslı təmir layihələrinin maliyyələşməsi artıq mərkəzləşdirilmiş qaydadan qismən çıxarılaraq adambaşına maliyyələşmə mexanizmi çərçivəsində müəssisələrin öz maliyyə planlarına inteqrasiya edilmişdir.

**Bu modelin əsas üstünlüyü:**

*– müəssisələr öz büdcələrindən cari xərcləri planlı şəkildə yönləndirə bilir;*

*– maliyyə ehtiyat fondu və illik təmir planı formalaşdırılır;*

*– təmir ehtiyacları risk dəyərləndirmə matrisləri əsasında prioritetləşdirilir;*

*– audit və monitorinq sistemləri vasitəsilə resurs səmərəliliyi izlənilir.*

Bu yanaşma infrastrukturun qorunmasını proaktiv maliyyə idarəetməsi mexanizminə çevirir.

2024–2025-ci illərdə aparılan təmir işlərinin mühüm yeniliyi onların yaşıl infrastruktur prinsiplərinə uyğunlaşdırılmasıdır. Belə ki, bütün əsaslı təmir layihələrində istilik izolyasiyalı materiallardan, enerji səmərəli pəncərə və qapı sistemlərindən, LED tipli işıqlandırmadan, az su sərf edən sanitariya avadanlıqlarından istifadə olunur.

**4.6. Elmi təhlil və nəticə**

2019–2025-ci illərdə aparılan tikinti, yenidənqurma və texniki təchizat proqramları nəticəsində: peşə təhsilinin maddi-texniki bazası beynəlxalq səviyyəyə yaxınlaşdırılmış, regional bərabərlik və məkan inklüzivliyi təmin edilmiş, praktiki təlim mühiti və istehsal proseslərinin inteqrasiyası gücləndirilmiş, yaşıl enerji və resurs səmərəliliyi prinsipləri sistemə daxil edilmiş, bütün regionlar üzrə layihələndirmə və infrastruktur inkişaf xəritəsi formalaşdırılmışdır. Bu nəticələr onu göstərir ki, infrastrukturun yenilənməsi yalnız fiziki dəyişiklik deyil, həm də peşə təhsili sisteminin dayanıqlı inkişaf modelinə keçidinin əsas təməlidir. İnvestisiyayönümlü bu model maliyyə, sosial və ekoloji baxımdan inteqrə olunmuş inkişaf mexanizmini təmin edir.

**5. Süni intellekt və rəqəmsal idarəetmənin gələcək tətbiqi**

Peşə təhsili sistemində rəqəmsallaşma və süni intellektin (AI) tətbiqi hələ ilkin mərhələdədir, bu istiqamət gələcək üçün prioritet sahə kimi müəyyən edilmişdir. Bu yanaşma gələcəkdə peşə təhsilinin idarə edilməsində şəffaflığı, qərarvermə sürətini və maliyyə səmərəliliyini artıracaqdır.

**6. Elmi nəticələr və tövsiyələr**

1. Peşə təhsilinin maliyyə və infrastruktur islahatları insan kapitalının inkişafında əsas determinantdır.

2. Adambaşına maliyyələşmə və nəticəyönlü büdcə modeli müəssisələrin müstəqilliyini və hesabatlılığını artırmışdır.

3. Emalatxanaların müasir avadanlıqlarla təchizatı və yaşıl enerjiyönümlü laboratoriyalar praktiki təlim keyfiyyətini yüksəltmişdir.

4. Genderəsaslı büdcə sosial bərabərlik və inklüziv inkişaf üçün zəruri mexanizmdir.

5. Süni intellekt və rəqəmsal idarəetmə gələcəkdə maliyyə planlamasında və idarəetmədə yeni mərhələ yaradacaq.

**Nəticə.** Son illər respublikamızda peşə təhsili müəssisələrinin inkişafı maliyyə müstəqilliyi, infrastrukturun modernləşdirilməsi, sosial ədalət və innovasiyaəsaslı idarəetmə modeli üzərində qurulmuşdur. Emalatxanaların yenilənməsi, yaşıl enerji texnologiyalarının tətbiqi, nəticəyönlü büdcə və süni intellektin perspektivdə inteqrasiyası bu sistemi davamlı, şəffaf və rəqabətqabiliyyətli peşə təhsili modelinə çevirir. İnanırıq ki, bu inkişaf xətti Azərbaycanın insan kapitalı strategiyasını gücləndirərək əmək bazarına praktik bacarıqlı, texnoloji düşüncəli və ekoloji məsuliyyətli kadrlar qazandıracaq.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin 17 mart 2023-cü il tarixli, 2067 nömrəli Fərmanı. https: // e-qanun.az

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2023-cü il tarixli, 192 nömrəli Qərarı. https: // e-qanun.az

3. Peşə Təhsili üzrə Dövlət Agentliyi. 2023–2025-ci illər üzrə hesabatlar və rəsmi məlumatlar. https: // vet.edu.gov.az

4. Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf Strategiyası. https: // e-qanun.az

5. Böyük Qayıdışa dair I Dövlət Proqramı. https: // e-qanun.az

**V.Mammadov**

### Financial and infrastructure development of vocational education institutions: a results-oriented, inclusive and innovative management model

**Abstract**

The article analyzes the innovations and reforms carried out in the financial and infrastructure system of vocational education institutions in our republic on a scientific basis. It also extensively examines processes such as per capita financing, result-oriented and gender-based budgeting, budget risk management, equipping workshops with modern equipment, green energy-oriented infrastructure, as well as the future integration of artificial intelligence into management. The article is based on both the experience of pilot institutions and the results of reforms implemented throughout the republic.

**В.Мамедов**

### Финансовое и инфраструктурное развитие учреждений профессионального образования: модель управления, ориентированная на результат, инклюзивная и инновационная

**Аннотация**

В статье на научной основе анализируются инновации и реформы, проводимые в системе финансирования и инфраструктуры организаций профессионального образования нашей республики. Подробно рассматриваются такие процессы, как подушевое финансирование, бюджетирование, ориентированное на результат и гендерный фактор, управление бюджетными рисками, оснащение мастерских современным оборудованием, инфраструктура, ориентированная на зеленую энергетику, а также перспективная интеграция искусственного интеллекта в систему управления. Статья основана как на опыте пилотных организаций, так и на результатах реформ, реализуемых в республике.